## EKOLOJİ GEYİM DİZAYNINDA RƏNG DİAPAZONUNUN TƏTBİQİ

**Əliyeva Gülnarə Nurəddin qızı**
**Azərbaycan Texnologiya Universiteti**
**Yüngül sənaye mühəndisliyi və dizayn kafedrasının baş müəllimi**
**Email: g.aliyeva@atu.edu.az**

**Əsgərova Radə İsfəndiyar qızı**
**Azərbaycan Texnologiya Universiteti**
**Yüngül sənaye mühəndisliyi və dizayn kafedrasının lab.müd.**
**Email: r.asgerova@uteca.edu.az**

***UOT 677.52***

https://doi.org/10.30546/200309.2026.002.502

### XÜLASƏ

Ekoloji geyim dizaynında rəng diapazonunun tətbiqi yalnız texniki və estetik məsələ deyil, həm də fərdi və ictimai məsuliyyətin təzahürüdür. Rənglərin təbiətdən ilham alması, təbii boyalarla hazırlanması və simvolik mənaların dərinliyi bu sahədə yeni üfiqlər açır. Davamlı və mənalı moda üçün rəng – sadəcə seçim deyil, bir mesajdır.

Mövsümə və geyimin funksiyasına uyğun olaraq seçilən rənglər, ekoloji dizaynın həm funksional, həm də mənəvi gücünü artırır. Rəng diapazonu ekoloji geyim dizaynında məsuliyyətli və şüurlu dəbin əsas ifadə vasitəsinə çevrilir.

***Açar sözlər:*** estetik, vizual, diapazon, konseptual, rəng palitrası, təbii boyalar.

Müasir dövrdə moda sənayesi yalnız estetik dəyər daşımaqla kifayətlənmir, həm də ətraf mühitə və insan rifahına olan təsiri baxımından qiymətləndirilir. Bu baxımdan ekoloji geyim dizaynı günümüzün vacib tendensiyalarından birinə çevrilmişdir. Dizaynın əsas elementlərindən biri olan rəng seçimi, bu sahədə həm vizual mesaj daşıyır, həm də konseptual və ekoloji mənanı ifadə edir. Bu baxımdan ekoloji geyim dizaynında rəng diapazonunun necə seçildiyi, hansı məqsədlərə xidmət etdiyi və təbiətlə əlaqəsinin necə qurulduğu araşdırılır.

Ekoloji geyim dizaynı yalnız təbii və təkrar emal edilə materiallardan istifadə etməklə kifayətlənmir, həm də istehsalın bütün mərhələlərində ətraf mühitə minimum ziyan vurmağı, etik istehsal prinsiplərinə əməl olunmasını və uzunömürlülü, funksional məhsullar yaratmağı qarşısına məqsəd qoyur.

Son illərdə dünya ictimaiyyəti iqlim dəyişikliyi, təbii sərvətlərin tükənməsi və ətraf mühitin çirklənməsi kimi ciddi problemlərlə üz-üzə qalmışdır. Bu qlobal çağırışlar cəmiyyətin müxtəlif sahələrində, o cümlədən moda sənayesində də yeni yanaşmaların meydana çıxmasına səbəb olmuşdur. Ənənəvi geyim istehsalı prosesi çox zaman təbiətə mənfi təsir göstərir, milyonlarla ton su sərf olunur, kimyəvi boyalar torpağı və çayları çirkləndirir, zərərli qazlar atmosferə buraxılır. Bütün bunlar fonunda ekoloji moda və davamlı dizayn prinsipləri daha çox aktuallıq qazanmışdır.

Dizayn fəlsəfəsinin vacib komponentlərindən biri də rəng seçimi və onun diapazonudur. Ekoloji dizaynda istifadə olunan rənglər adətən təbiətin özündən ilham alır, torpaq, yarpaq, su, göy üzü və günəş işığı kimi təbii elementlər rəng palitrasının əsasını təşkil edir. Bu yanaşma həm təbii boyaların istifadəsini təşviq edir, həm də sadəlik, balans və harmoniya hissi yaradır. Rənglərin düzgün seçilməsi dizaynın həm də fəlsəfi dəyərini artırır, istehlakçıda emosional bağlılıq yaradır və təbiətə hörmət mesajını ötürür.

Ekoloji geyim dizaynı həm soaial məsuliyyət, həm də estetik həssaslıq tələb edir. Bu sahədə dizayner yalnız geyim yaradıcı deyil, həm də ekoloji dəyərlərin daşıyıcısı və təbliğatçısı rolunda çıxış edir. Dizaynın tərkib hissəsi kimi rəng mühüm rol oynayır. Çünki rəng ilk vizual təəssürat formalaşdırır, məhsulun əhvalını və yönümünü müəyyənləşdirir.

Ekoloji dizaynda rəng seçimində  əsas meyarlar bunlardır. Təbiilik və harmoniya, zərərsiz və təbii boyaların istifadəsi, mövsümə və funksiyaya uyğunluq, rəngin emosional və simvolik təsiri. Bu yanaşma sadəcə dizaynda gözəllik axtarmaqdan daha çox istehsalın və istifadənin davamlı və məsuliyyətli olması anlamını daşıyır.

Ekoloji geyim dizaynında rənglər mövsümi dəyişikliklərə və istifadə məqsədinə görə seçilir. Bu geyimin həm funksionallığını, həm də estetik uyğunluğunu artırır.Bu uyğunluq istifadəçinin geyimi daha uzun müddət istifadə etməsinə kömək edir, həm də zəngin hisslərlə təmasını gücləndirir.

Müasir dövrdə rəqəmsal dizayn texnologiyaları, xüsusilə 3D modelləşdirmə, rəqəmsal rəng stimulyasiyası və ağıllı tekstil proqramları ekoloji moda dizaynında mühüm rol oynayır. Dizayner artıq məhsulu istehsal etmədən, rənglərin bir-biri ilə uyğunluğunu, parça fakturasında görünüşünü və təbii tonların effektini kompyuter üzərində test edə bilir. Belə yanaşma bu üstünlükləri yaradır. Material israfının azaldılması, rəng tullantılarının aradan qaldırılması, daha dəqiq rəng uyğunluğunun təmin olunması, dizayn dövrünün sürətlənməsi və ekoloji yükün azalması.

Ekoloji rəng palitrası təkcə universal estetikaya deyil, regional və mədəni kontekstə də uyğunlaşdırılmalıdır. Fərqli bölgələrdə təbiət mənzərəsi və iqlim xüsusiyyətləri müxtəlif olduğu üçün bu insanların rəngə emosional yanaşmasına da təsir göstərir.

Ekoloji dizayn yalnız gündəlik geyimlərlə məhdudlaşmır. Rəng diapazonunun uyğun seçilməsi başqa-başqa sahələrdə ühüm rol oynayır. İdman geyimləri istehsalında təbii tonlar istifadəçidə psixoloji rahatlıq yaradır (açıq yaşıl, torpaq rəngi).

Təbii boyalı, nəfəsalan materiallar tər ifrazını azaldır və dərini qıcıqlandırmır.

Mavi, açıq sarı, yaşıl rənglər sakitləşdirici və diqqət toplayıcı təsir göstərir. Bunlar uşaqlar üçün daha əlverişlidir.

Ekoloji geyimdə rəng diapozonunun tətbiqi hələ də bəzi problemlərlə qarşılaşır.

Təbii boyaların rəng sabitliyi zəifdir: tez solma və yuyulma zamanı dəyişmə problemi. Məhdud rəng çeşidi: təbii boyalarla alınan rənglər geniş spektr əhatə edir.

Ekoloji geyimlərdə istifadə olunan rənglərinsanın emosional, psixoloji və hətta sosial həyatına müsbət təsir göstərir. Təbii tonlar vasitəsilə insan-öz daxili aləmi ilə təbiət arasında balans yaradır. Rənglər insanı yalnız geyindirir, eyni zamanda onu daxililən sakitləşdirir, dəyərlərini gücləndirir və həyat tərzini formalaşdırır.

Geyimdə mövsümə və funksiyaya görə ekologiyanın rolu geyim materiallarının, boyaların və istehsal üsullarının təbiətə və insan sağlamlığına təsirini daha dərindən anlamağa kömək edir.

Ekoloji baxımdan mövsüm və funksiyaya uyğun istehsal prinsiplərinin təkrar emalı dedikdə, mövsümi geyimlərin az istifadə olunduğunu nəzərə alaraq, təkrar emal dizaynları çox önəmlidir. Bu baxımdan yaz üçün incə pencək – payızda əlavə qatla geyilə biləcək formada dizayn oluna bilər.

Bioparçalanan materiallar yeni təbii boyalarla boyanmış pambıq – kətan, yun parçalar qısa zamanda parçalanır və və ətraf mühitə yük yaratmır.

Geyim dizaynında ekoloji tələbatlar bu geyim istehsalında və dizayn prosesində təbiətə və insan sağlamlığına minimum zərər verən prinsiplərin tətbiqidir. Müasir dövrdə "eko-dizayn" və "davamlı moda" anlayışları bu prinsiplərlə birbaşa bağlıdır. Ekoloji tələbatların əsas istiqamətlərini izah edək. Mütləq şəkildə təbii mənşəli, bioloji parçalanan və ya təkrar emal oluna bilən materiallardan istifadə edilməlidir. Məsələn, Pestisidsiz və GMO-suz yetişdirilmiş xammallar. Rəngləndirmə və kimyəvi işləmə üçün tələblər isə toksik

olmayan sertifikatlı boyalar tətbiq edilməlidir. Rəngləmə prosesi zamanı su sərfiyyatı və tullantı suyun təmizlənməsi nəzarətdə saxlanmalıdır.

Ekoloji geyim hazırlananda rənglərin vacibliyi bir neçə mühüm funksional və estetik səbəblə izah olunur. Bu yalnız görünüş deyil, həm də təbii qaynaqların istifadəsi, istifadəçinin sağlamlığı, ətraf mühitə təsir və brendin mesajı baxımından əhəmiyyətlidir. Ətraf mühitə baxımı dedikdə kimyəvi boyalar su hövzələrinə zərər verir, təbii boyalarla rəngləmə ekoloji izləri azaldır. Rəngin seçimi və mənbəyi istehsalın ümumi karbon izinə təsir edir. İnsan sağlamlığı baxımından ona görə vacibdir ki, təbii boyalar allerji yaratmır, toksinlər yaymır. Uşaqlar və dəri həssaslığı olan insanlar üçün təbii rənglənmiş parça daha təhlükəsizdir.

Formaldehid və ağır metallardan istifadə edilməməsi sağlamlıq üçün önəmlidir. Rəngin estetik və dizayn baxımından tətbiqi vacibdir. Çünki rəng geyimin emosional və vizual təsirini müəyyən edir. Təbii boyalarla əldə edilən tonlar unikal və canlıdır, süni rənglərdəki "soyuqluq" hiss olunmur. Ekoloji geyimlərdə yaşıl və mavi təbiət tonları təbiətə hörməti simvolizə edir.

Davamlılıq və istifadəyə uyğunluq baxımından rənglərin vacibliyi budur ki, təbii rənglənmiş parçalar daha klassik və uzunömürlü görünür. Solğun tonlar və neytral çalarlar tez dəbdən düşmür, uzun müddət istifadə olunur. Bu parçalar təkrar istifadə və təmir üçün daha uyğundur. İmic baxımından isə təbii rənglərdən istifadə edən brendlər davamlılığa sadiqliyini göstərir. İstifadəçiyə etik və təmiz istehsal prosesi təqdim olunur. Ekoloji moda rəng vasitəsilə mesaj ötürür. "Təbiəti qoruyuruq, kimyəviyə yox deyirik".

İstifadəçi psixologiyası və emosional ruhda zəngin əhəmiyyəti, insanların ruh halına və psixoloji rahatlığına təsir göstərir. Ekoloji geyimlərdə istifadə olunan yumşaq təbiətə yaxış rənglər sakitləşdirici və balanslı hisslər yaradır. Belə geyimlər yalnız fiziki deyil, emosional rahatlıq vasitəsi kimi də dəyərli edir. Yəni insanı sabit və özünə güvəni hiss etdirir.

Eko-şüurlu istehlakçıya mesaj vermək üçün ekoloji rənglər təkcə moda deyil, bir ideologiyanın və həyat tərzinin nümayişidir.

İstehlakçılar belə geyimləri geyinərkən "Mən təbiəti düşünürəm" mesajını ötürür. Ekoloji davamlılıq təbii resursların və ekosistemlərin gələcək nəsillərə də eyni sağlamlıq və sərvət şəraitində çardırılması üçün onların mühafizəsi və düzgün istifadəsini nəzərdə tutan bir anlayışdır. Ekoloji davamlılıq, ətraf mühitin təbii sərvətlərinin qorunması, təbiətin sağlamlığının təmin edilməsi və insanların bu sistemlərlə harmoniyada yaşaması məqsədini güdür. Ekoloji davamlılığın əsas prinsipləri təbii resursların qorunması və səmərəli

istifadəsindən ibarətdir, yəni ekoloji davamlılıq təbiət resurslarını aşırı istifadə edilməsinin qarşısını almağa çalışır.

Geyim sənayesində ekoloji davamlılıq ekoloji geyimlərin hazırlanmasında istifadə olunan materiallar, təbii boyalar nəzərdə tutulur. Təbii boyalarla əldə edilən rənglər unikaldır, hər bir öz tonuna malikdir. Geyim dizaynerləri üçün rəng vasitəsilə təbiilik və fərdlilik ifadə olunur.

*Ekoloji geyimdə rəng dizayner üçün də ifadə rolunu ifadə edir*

- Fəlsəfi və ideoloji mesaj – yəni təbiətə hörmət, unikal görünüş hər geyim özünəməxsusdur, təkrar istifadə və sadəlik, solmağa meylli olmayan;
- Rəng yalnız vizual seçim deyil, həm də ideoloji və mədəni dəyər daşıyıcısıdır. Ekoloji dizaynda rəng bunları ifadə edir. Təbiətə hörmət, sağlamlıq və zəhərsiz həyat tərzi, sadəlik və təvazökalıq, dayanıqlı istehsal və təkrar istifadədir;
- Dizaynerlər üçün ekoloji rəng seçimi həm yaradıcı məsuliyyət, həm də cəmiyyətə olan töhfədir. Bu gələcəyin modasında əsas meyarlardan biri kimi önə çıxır;
- Ekoloji geyim dizaynında rəng, həm estetik dəyər, həm də etik məsuliyyət daşıyan əsas elementlərdən biridir;
- Rənglər psixoloji və emosional səviyyədə insanlara müsbət təsir göstərərək geyimin rahatlıq və balans hissi yaratmasına kömək edir;
- Ekoloji geyimdə rəng-moda üçün keçici bir tendensiya deyil, təbiətə, insan və gələcəyə olan məsuliyyətin rəngli ifadəsidir. Rəng vasitəsilə həm estetik gözəllik, həm də ekoloji şüur yaradılır. Bu yanaşma ekoloji modanın mahiyyətini və gələcək istiqamətini formalaşdırır;
- Ekoloji geyim dizaynında rəng gələcəyin modasına yön verən, təbii ilə texnologiyanı birləşdirən, sənət ilə məsuliyyəti uzlaşdıran əsas ünsürlərdən biridir.

## APPLICATION OF COLOUR RANGE IN ECOLOGICAL CLOTHING DESIGN

**Aliyeva Gulnara Nuraddin**
**Azerbaijan Technological University**
**Senior Lecturer, Department of Light Industry Engineering and Design**
**E-mail: g.aliyeva@atu.edu.az**

**Askerova Rada Isfandiyar**
**Azerbaijan Technological University**
**Head of Laboratory, Department of Light Industry Engineering and Design**
**E-mail: r.asgerova@uteca.edu.az**

***UDC 677.52***

**SUMMARY**

The application of colour palette in ecological fashion design is not only a technical and aesthetic issue, but also a manifestation of personal and social responsibility. The fact that colours are inspired by nature, made with natural dyes and a depth of symbolic meanings, opens new horizons in this field. Colour for sustainable and meaningful fashion is a message, not just a choice.

Colours chosen according to the season and the function of the garment enhance both the functional and spiritual power of ecological design. Colour becomes the primary means of expressing responsible and conscious fashion in ecological fashion design.

***Keywords*****:** aesthetic, visual, assortment, conceptual, colour palette, natural dyes.

## ПРИМЕНЕНИЕ ЦВЕТОВОЙ ГАММЫ В ЭКОЛОГИЧЕСКОМ ДИЗАЙНЕ ОДЕЖДЫ

**Алиева Гульнара Нуреддин кызы**
**Азербайджанский Технологический Университет**
**Старший преподаватель кафедры, Инженерии и дизайна легкой промышленности**
**Эл.почта: g.aliyeva@atu.edu.az**

**Аскерова Рада Исфандияр кызы**
**Азербайджанский Технологический Университет**
**Зав. лаборатории кафедры, Инженерии и дизайна легкой промышленности**
**Эл.почта: r.asgerova@uteca.edu.az**

***УДК 677.52***

**РЕЗЮМЕ**

Применение цветовой гаммы в экологическом дизайне одежды-это не только технический и эстетический вопрос, но и проявление личной и общественной ответственности. Тот факт, что цвета вдохновлены природой, сделаны с использованием натуральных красителей и глубины символических значений, открывает новые горизонты в этой области. Цвет для устойчивой и значимой моды – это послание, а не просто выбор.

Цвета, выбранные в соответствии с сезоном и функцией одежды, усиливают как функциональную, так и духовную силу экологического дизайна. Цветовая гамма становится основным средством выражения ответственной и осознанной моды в экологическом дизайне одежды.

***Ключевые слова:*** эстетический, визуальный, ассортимент, концептуальный, цветовая палитра, натуральные краски.

***Ədəbiyyat siyahısı***


**1.** Əliyeva L. Ekoloji dizayn və davamlı moda. Təhsil nəşriyyatı. Bakı, 2020,-87s.

**2.** Məmmədova T. Geyim dizaynının əsasları və zəngin rolu. Bakı, 2018,-202s.

**3.** Gülməmmədov S. Təbii boyalar və tekstil sənayesində tətbiqi. Bakı, 2019,-5s.

**4.** Əliyeva N. Ekoloji geyimlərdə rəng seçiminin psixoloji və funksional təsiri. Bakı, 2021,- Azərbaycan Dizayn və moda jurnalı səh.45-52.

**5.** Şərifova G. Ekoloji tekstil məhsullarının dizaynında rəng harmoniyası.Bakı

**6.** Сухорукова И.Н. «Экологический подход в модной индустрии: цвет как элемент устойчивого дизайна» М.: 2021-ст. 34-41.